# 20 Yanvarı xatırlayarkən...

***Azərbaycan xalqının yaxın tarixinə həm faciə, həm də qəhrəmanlıq salnaməsi kimi daxil olmuş 1990-cı ilin qanlı 20 Yanvar faciəsindən 20 il ötür. 20 Yanvar faciəsi xalqımızın XX asrdə müstəqillik və milli dövlətçilik uğrunda apardığı fədakar mübarizənin ən şanlı, ən parlaq səhifələrindən biridir. Tam mənəvi əsasla və böyük qürur hissi ilə deyə bilərik ki, 1990-cı ilin qanlı 20 Yanvarında Azərbaycanın ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirəsi hər bir zaman qədirbilən xalqımız tərəfindən uca tutulur, onların ruhuna böyük hörmət və ehtiram göstərilir. Azərbaycanın vətənpərvər və qeyrətli övladlarının uyuduğu Şəhidlər Xiyabanı bu gün sözün həqiqi mənasında xalqımız üçün müqəddəs bir məkandır. Həmin dövrdə xalqımızın haqq işi uğrunda prinsipial və fədakar mübarizə aparan vətənpərvər, millətsevər soydaşlarımızdan biri də qezetimizin təsisçisi və baş redaktoru, «Beynəlxalq Əlillər Cəmiyyəti» İctimai Birliyinin sədri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Tahir Xudiyevdir. Bəs Tahir Xudiyev həmin qanlı-qadalı günləri necə xatırlayır? Gəlin, onun özünü dinləyək:***



- 20 Yanvar hadisələrinin baş verdiyi dövrdə Azərbaycanda informasiya qıtlığı var idi.Azərbaycan bütün dünyadan təcrid olunmuşdu. Demək olar ki, Rus imperiyasının Azərbaycandakı haqsızlığını, böyük amansızlıqla həyata keçirdiyi qətliamı dünya ictimaiyyətinə çatdırmaq olmurdu. Amma o dövrdə qanı, canı, bütün varlığı ilə xalqına, millətinə bağlı olan, Vətənini, Azərbaycanın ərazi bütövlüyünü sevən insanlar bütün mümkün vasitələrlə bu faciəni dünya ictimaiyyətinə catdırmağa çalışırdılar. Özü də həmin dövr elə bir dövr idi ki, ortalıqda heç bir göstəriş, tapşırıq yox idi. Doğrudur, ola bilərdi ki, həmin vaxtlar kimlərsə kiminsə göstərişi ilə hərəkət edirdi. Amma mən şəxsən öz adımdan deyə bilərəm ki, mən heç bir göstəriş, təlimat və ya tapşırıq olmadan, öz vicdanımın hökmü, ürəyimin diqtəsi ilə hərəkət edirdim.

Azərbaycanda baş vermiş qanlı faciəni özündə dolğun əks etdirən yazıları rus və ingilis dillərində çap etdirib bütün dünyaya yaymağa çalışırdım. Həmin yazılar Moskvada fəaliyyət göstərən xarici ölkə səfirliklərinə, beynəlxalq təşkilatların təmsilçilərinə, kütləvi informasiya vasitələrinə çatdırılırdı. Eyni zamanda, həmin yazıları keçmiş SSRİ-nin böyük şəhərlərində əhali arasında yayırdıq. Həmçinin Moskvaətrafı vilayətlərdə həm azərbaycanlılar, həm də ruslar arasında arasında təbliğat apararaq onları Moskvada keçirilən piketlərə və digər siyasi etiraz aksiyalarına cəlb edirdik. Bu işə hətta Rusiyada biznesl̇ə məşğul olan azərbaycanlıları da cəlb edirdik. Həmin dövrlərdə bu olduqca təhlükəli idi. Hətta əhali ilə keçirdiyimiz görüşlərin birində şovinist bir rus qadını qızışdırıcı çıxış edərək əhalini üstümüzə qaldırdı. Biz iki nəfər idik. Əhali kütləvi şəkildə üstümüzə qalxdı və biz fiziki təhqirlərə məruz qaldıq. Hüquqmühafizə orqanlarının əməkdaşları isə bu mənzərəni sakitcə seyr edirdilər. Yeri gəlmişkən, elə hüquq -mühafizə orqanları əməkdaşlarının özləri də əhalini qızışdırıb bizim üstümüzə salırdılar. Həmin günləri heç vaxt unutmayacağam...

Bir müddət sonra Azərbaycana qayıtdım. Azərbaycanda fövqəladə vəziyyət elan olunmuşdu. Rus əsgərləri Bakıda sözün əsl mənasında ağalıq edirdilər. Onlar hətta 2-3 nəfərin bir yerdə olmasına belə imkan vermirdilər. Respublikamızda xüsusi hərbi rejim hökm sürürdü. Onu da qeyd edim ki, 20 Yanvar hadisələrindən sonra xalqımızda böyük bir ruh düşkünlüyü yaranmışdı, sabaha inam yox idi. Hamı xof, həyəcan içərisində yaşayırdı. Buna görə də biz xalqın ruhunu, inamını yenidən özünə qaytarmaq üçün müxtəlif yollar, üsullar arayırdıq. Xeyli düşünüb götür-qoy etdikdən sonra mən qərara gəldim ki, vətəndaşları bir yerə toplamaq üçün xalqın sənətini sevdiyi bir musiqiçini müəyyən bir yerə dəvət edək və şəhidlərə həsr olunmuş xeyriyyə konserti təşkil edək. Əslində həmin ideyam həmin xeyriyyə konsertindən əvvəl xalq hərəkatının təmsilçilərini həmin yerə dəvət edərək camaat qarşısında çıxışlarını təşkil etmək idi. Mən bu ideyamı yaxın yoldaşlara bildirdim, onlar da mənim bu ideyamı dəstəklədilər. Mən həmin sənətçinin tanınmış gitaraçalan, xalqın sevimli sənətçisi Rəmişlə danışaraq onu razı salmağı öz boynuma götürdüm. Rəmiş mənim bu təklifimə razılıq verdi. Xeyriyyə konsertinin veriləcəyi məkan kimi isə "Sevinc" kinoteatrını seçdik...

Beləliklə, 1990-cı il aprel ayının 4-5-i konserti təşkil edə bildik. Həmin günlər "Sevinc" kinoteatrının zalı və ətrafı insanlarla dolu idi. Həqiqət naminə onu da bildirim ki, bu konsertin təşkilinə bəzi milli ruhlu dövlət məmurları da dəstək vermişdilər. Konsertdən əvvəl xalq hərəkatının bəzi təmsilçiləri əhali qarşısında çıxış edərək, xalqı milli birliyə və heç nədən çəkinməməyə çağırdılar. Bu da öz-özlüyündə soydaşlarımıza müsbət təsir göstərdi. Mübaliğəsiz deyə bilərəm ki, həmin konsertin sorağı ildırım sürəti ilə bütün ölkəyə yayıldı, hətta dövlət televiziyasının "Günün xəbərləri" verilişində bu barədə geniş süjet nümayiş etdirildi. Baxmayaraq ki, bəzi siyasətçilər belə bir konserttoplantının keçirilməsinin əleyhinə idilər, lakin sonralar həmin tədbirdən onlar özləri üçün müəyyən siyasi xal qazandılar...

Yeri gəlmişkən, bir məqamı da xüsusi qeyd etmək istəyirəm. Mənim həmin konsert-toplantının keçirilməsi təşəbbüsümü dəstəkləyən və mənim bu ideyama tərəfdar olan digər vətənpərvər oğullarımız da bu işdə çox əziyyət çəkmişdilər. Bu gün mən onların hər birinin adını ayrılıqda çəkə bilmirəm. Çünki onların sayı çoxdur. Onlardan bu gün Azərbaycanda olmayanlar da var. Mən onların hər birinə öz təşəkkürümü bildirirəm.

Diqqətinizə onu da çatdırım ki, mən şəhidlərimizin ildönümü mərasimində də fəal iştirak etmişəm. Şəhidlərin ildönümü günü biz paytaxtın 5 rayonunun -Nizami, Xətai, Suraxanı, Sabunçu və Əzizbəyov rayonunun sakinlərinin "Aynur" məişət evinin önündə toplanmasını təşkil etdik. Biz həm də əhalinin təhlükəsizliyini təmin etmək üçün öndə gedirdik. Həmin gün biz öndə olmaqla 1 milyondan çox əhali Şəhidlər xiyabanını ziyarət etdi. Şəhidlər xiyabanında -böyük bir izdiham var idi. Allah cəmi şəhidlərimizə qəni-qəni rəhmət eləsin!

**- Tahir müəllim, amma etiraf edək ki, bu gün cəmiyyətimizdə Azərbaycanın milli müstəqilliyi və dövlətçiliyi uğrunda döyüşərək sağlamlığını itirmiş şəxslərə münasibətdə bir laqeydlik, soyuqluq var. Siz bu barədə nə deyə bilərsiniz?**

- Fikrinizlə tam razıyam. Elə götürək mənim özümü. Mən 1985-ci ildən əmək əliliyəm. Amma düzünü deyim ki, həmin vaxtlar mənim səhhətimdə elə bir ciddi problem yox idi. Mən həmişə Azərbaycanın müstəqil dövlət olmasını arzulamışam. Yuxarıda qeyd etdiyim kimi, müstəqillik uğrunda mübarizənin ən çətin, ən ağır dövrlərində bu mübarizədə fəal iştirak etmişəm. Mən hələ Qarabağda könüllü döyüşməyimi demirəm... Mənim səhhətimdəki ciddi problemlər də o dövrdə yaranıb... Lakin əfsuslar olsun ki, bu gün mənə və mənim kimi insanlara birmənalı şəkildə çox soyuq, laqeyd və ögey münasibət bəslənilir... Mən buna təəssüflənirəm... Amma buna baxmayaraq, mən Azərbaycanımızın müstəqil bir dövlət kimi yaşamasından sevinir və qürur duyuram.

**- Tahir müəllim, sonda arzularınızı bilmək istərdik.**

- Ən böyük arzum Qarabağın azad edilməsidir. Digər ən böyük arzum isə o taylı-bu taylı Azərbaycanımızı bütöv, vahid bir dövlət kimi görməkdir...

***Mənsur İbrahimli,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# "Dünyanın bütün mütərəqqi ölkələrində olduğu kimi, Azərbaycanda da ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkən insanlara dövlət səviyyəsində qayğı və diqqət ildən-ilə artır"

## Əhməd Babayev: «Ürək-damar xəstəliklərinin sayının azalması əsasən profilaktiki tədbirlərin düzgün həyata keçirilməsindən asılıdır»

***Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir.***
**Heydər Əliyev**

**Tanışlıq üçün:** *Əhməd Məmməd oğlu Babayev 1952-ci ildə anadan olub. 1968-ci ildə Bakı şəhərindəki 36 saylı orta məktəbi bitirib. 1968-1974-cü illərdə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsində təhsil alıb. Əmək fəaliyyətinə Sumqayıt Şəhər Təcili-Tibbi Yardım Xəstəxanasında həkim-ordinator kimi başlayıb. 1976-1979-cu illərdə Əmək Gigiyenası və Peşə Xəstəlikləri İnstitutunda kiçik elmi işçi olub. 1979-1982-ci illərdə Moskvada SSRİ Tibb Elmləri Akademiyasının aspiranturasının əyani şöbəsində təhsil alıb. Bir müddət C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun kiçik elmi elmi işçi, sonra isə baş elmi işçi vəzifələrində çalışıb. 1988-1995-ci illərdə Respublika Diaqnostika Mərkəzində şöbə müdiri işləyib. 1995-1997-ci illərdə 15 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi vəzifəsində çalışıb. 1997-ci ildən adıçəkilən institutun baş həkimidir.*

*1999-cu ildən həm də əvəzçiliklə Azərbaycan Tibb Universitetinin Klinik farmakologiya kafedrasının asisstentidir. 1984-cü ildən tibb elmləri namizədi, 2009-cu ildən isə tibb elmləri doktorudur.*

*O, 70-dən artıq elmi əsərin, 1 monoqrafiya və metodik göstərişin müəllifidir. Çöhrəsi nurlu Əhməd Babayev həm də etiqadlı, imanlı bir insandır. Onunla söhbətimizi sizə təqdim edirik.*

***-Əhməd müəllim, rəhbərlik etdiyiniz institut nə vaxtdan fəaliyyət göstərir?***

*- Bu institut 1980-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb. Bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, bu birinci hadisə idi ki, ölkənin birinci şəxsi şəxsən özü xəstəxananın açılışında iştirak edirdi. Bu, xalqımızın müdrik oğlu Heydər Əliyevin böyük uzaqgörənliyi idi.*

**-Son illər respublikamızda ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara göstərilən tibbi xidmət barədə nə deyə bilərsiniz?**

- Dünyanın bütün mütərəqqi ölkələrində olduğu kimi, Azərbaycanda da ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara dövlət səviyyəsində qayğı və diqqət ildən-ilə artır. Rəsmi statistikaya görə ürək -damar sistemi xəstəlikləri üzündən baş verən ölüm halları əlillik travmalarında və onkoloji xəstəliklərdən sonra ilk yerləri tutur. Ürək-damar xəstəliklərinin yayılmasının bir neçə səbəbi var: siqaret çəkmə, alkoqol qəbulu, piylənmə, hipodinamiya ( az hərəkətlilik), stress və s. ürək -damar xəstəliklərinin artmasına zəmin yaradır. Biz onları risk faktorları adlandırırıq.

Elə buna görədir ki, biz ürəkdamar sistemi xəstəliklərinin profilaktikası haqqında danışarkən ilk növbədə, risk amillərinin aradan götürülməsi və ya azaldılması hallarından danışırıq. Bu amillər arasında sənayenin sürətli inkişafı nəticəsində atmosferin çirklənməsi əsas yer tutur. Ölkəmizdə şəxsi avtomobillərin artması da atmosfer havasının çirklənməsində mühüm rol oynayır. Tədqiqatlar göstərir ki, böyük şəhərlərdə küçələrin kəsişdiyi yerlərdə, işıqforlarda atmosferdə qurğuşun və s. bu kimi kimyəvi maddələrin konsentrasiyası müəyyən olunmuş dərəcədən qat-qat çoxdur. Ürək-damar sistemi xəstəliklərinin sayının azalması əsasən profilaktiki tədbirlərin düzgün həyata keçirilməsindən asılıdır. Ona görə də bizim həkimlər öz işlərinin bir hissəsini xəstələrlə söhbətə sərf edir, maarifləndirmə işi aparırlar. Çalışdığım Elmi-tədqiqat Kardiologiya İnstitutunun klinikasında 4 000- 4 500 nəfər xəstə stasionar müalicə keçir. Klinikaya hər il bunlardan 5 dəfə artıq ambulator xəstələr müraciət edir. İnstitutun intensiv terapiya şöbəsində 1000-dən artıq xəstə stasionar müalicə alır. Müalicə olunduqdan sonra onların bir qismi əlillik dərəcəsi alırlar.Xəstələr institutun ambulator diaqnostika şöbəsində müalicə olunur və onlar uzun müddət klinikada müşahidədə olurlar.

Əlillik dərəcəsi təyin etmək üçün xəstənin ürək-damar sisteminin vəziyyəti haqqında ambulator diaqnostika şöbəsi müvafiq sənədlər hazırlayıb xəstənin yaşadığı ərazinin poliklinikasına göndərir. Bununla yanaşı, ilkin əlillik dərəcəsi almağa iddialı xəstələr mütləq institutun klinikasında stasionar müalicə və müayinə keçirlər. Bu cür xəstələrə xüsusi qayğı göstərilir. Onlar növbədən kənar qəbul olunur, sənədləşdirmə işi isə tezləşdirilir və s. Qeyd etdiyimiz kimi, əlilliyə gətirib çıxaran xəstəliklərdən ürək-damar xəstəlikləri birinci yerlərdədir. Keçirilmiş miokard infarktı, kardiomi-



opatiya, arterial hipertoniya, müxtəlif ürək qüsurları ürək çatışmazlığına gətirib çıxarır. Bu xəstələr əmək qabiliyyətini itirilər. Halbuki, onlar işə yaralıdırlar, hələ cəmiyyət xeyir verə bilərlər.

**- Son zamanlar ürək-damar xəstəliklərindən əziyyət çəkən şəxslər arasında gənclərin sayı artır. Siz bu barədə nə deyə bilərsiz?**

- Bu fikrinizlə razıyam. Apardığımız tədqiqatlar göstərir ki, son zamanlar ürək-damar sistemi xəstəliklərinə tutulan şəxslərin arasında gənclərin sayı artmaqdadır. Belə ki, 15-20 il əvvəllər əsasən 50-60 yaşlarda rast gəlinən ürəyin işemik xəstəliyi , arterial hipertoniya kimi xəstəliklərə indi 35-40 yaşlı insanlarda təsadüf olunması heç də təəccüblü görünmür.

Aldığımız nəticələr bizi ürəkdamar sistemi xəstəlikləri ilə daha gənc yaşlardan mübarizə aparmağa vadar edir. Təsadüfi deyl ki, institutda fəaliyyət göstərən uşaq kardiologiya şöbəsi tərəfindən məktəblərdə şagirdlərin ürək-damar sisteminin vəziyyəti qiymətləndirilir və onların profilaktikası barədə valideynlərə və məktəbin rəhbərliyinə müvafiq tövsiyələr verilir. Onu da qeyd edim ki, şagirdlər arasında piylənməyə meyllilik atrmaqdadır. Bunun üçün onların düzgün qidalanması vacibdir.

Uşaqlar arasında rast gəlinən ürək-damar xəstəlikləri arasında ürək ritminin pozulması hallarına daha çox təsadüf edilir. Buna görə də siqaretin orqanizmə mənfi təsiri barədə hər bir şagirdlə fərdi söhbətlər aparılır.

**- Əhməd müəllim, Səhiyyə Nazirliyinin instituta göstərdiyi qayğı və diqqət barədə nə deyə bilərsiniz?**

- İnstitutun belə geniş və effekli fəaliyyəti üçün Səhiyyə Nazirliyinin son zamanlar göstərdiyi qayğını xüsusi qeyd etmək istəyirəm. Son zamanlar institutda aparılan uğurlu işlər Səhiyyə Naziri cənab Oqtay Şirəliyevin bizə hərtərəfli qayğı və diqqətini göstərir.. Son 5 ildə xəstələrin dərmanlarla təchizatı xeyli yaxşılaşıb. Praktiki olaraq xəstələrin müalicəsində lazım olan bütün dərmanlarla təmin olunuruq. Xəstələrin qidalanmasının də keyfiyyəti xeyli dərəcədə yaxşılaşıb. Bununla yanaşı, institutun maddi-texniki bazası da gücləndirilib. Hörmətli nazirimiz Oqtay Şirəliyev şəxsən özü institutumuza gəlmiş və bizə öz tövsiyərini vermişdir. Eyni zamanda, qarşımızda duran vəzifə və problemlər geniş kollegiya iclasında ətraflı müzakirə edilmişdir. Bu faktın özü də bizim institutun işinə böyük qayğı və diqqətin bir əlamətidir.

**- İnstitutunuz tərəfindən hansı xeyriyyə işləri həyata keçirilir?**

- İnstitutumuzun Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əlaqələr saxlayır. Hörmətli Şeyximiz Allahşükür Paşazadə dəfələrlə bizim institutda olmuşdur. Şəxsən mənim müqəddəs Həcc ziyarətinə getməyimdə Şeyxin bilavasitə rolu olub.

Məlumat üçün onu da bildirim ki, zəvvarlar Həcc ziyarətinə yola düşməmişdən əvvəl müayinə olunurlar. Ürək-damar xəstəlikləri olanlar üçün tərəfimizdən müəyyən profilaktiki tədbirlər görülür, onların özləri ilə hansı dərmanları götürməli tövsiyə olunur. Şəyx özü şəxsən bizimlə əlaqə saxlayır və belə zəvvarların vəziyyəti ilə maraqlanır.

**- Əhməd müəllim, ailənizdə Sizdən savayı həkim olubmu?**

-Bizim ailəmizdə ilk həkim mən olmuşam. Atam uzun illər Dövlət Təhlükəsizlik Komitəsində (DTK) rəhbər işlərdə çalışıb. O, DTK-nın fəxri əməkdaşı adına layiq görülmüş ilk azərbaycanlılardandır. Onun ulu öndərimiz Heydər Əliyevlə çalışmasından qürur duyuram. Bir oğlum həkim, digər oğlum isə iqtisadçıdır.

Yeri gəlmişkən, mən Tibb İnstitutuna daxil olanda ulu öndər Heydər Əliyev məni şəxsən təbrik edib. Ulu öndər Heydər Əliyevlə mən 1996 -cı ildə Elmlər Akademiyasının Rəyasət Heyətinin toplantısında görüşmüşəm. Həmin vaxt böyük öndər Heydər Əliyev mənim işlərimlə şəxsən maraqlandı və mənə uğurlar dilədi.

**-Bir həkim kimi oxucularımıza hansı məsləhəti vermək istərdiniz?**

- Sağlamlıq insana Allah-Taala tərəfindən verilmiş bir əmanətdir. İnsan öz sağlamlığını özü qorumalıdır. Yuxarıda adları çəkilmiş pis vərdişlərlə insan öz canına qəsd edir. Bütün dinlərdə olduğu kimi, İslam dinində də insanın öz canına qəsd etməsi günahdır.Buna görə də bütün insanlara vaxtında həkimə müraciət etməyi, həkimlərin tövsiyərinə riayət etməyi məsləhət görürəm.

**- Əhməd müəllim, qəzetimizə və "Beynəlxalq Əlillər Cəmiyyəti"nə arzularınızı bilmək istərdik.**

-Sizin "Əlillər Dünyası" qəzetinin cəmiyyətimizdə xüsusi yeri var. Məlumdur ki, indi çoxlu qəzetlər fəaliyyət göstərir. Amma onların arasında əlillərin qayğı və problemlərinə diqqət yetirən qəzetlər azdır. Təəssüflər olsun ki, cəmiyyətdə əlillərə lazımı diqqət və qayğı göstərilmir. Buna görə də mən belə hesab edirəm ki, sizin qəzetiniz və cəmiyyətiniz bu sahədə böyük işlər görür. Arzu edirəm ki, qəzetinizin dövriliyi artsın, tirajı çoxalsın, cəmiyyətinizin isə fəaliyyəti genişlənsin, ictimai təşkilatlar və imkanlı iş adamları sizə dəstək versin.

***Məlahət Abdullayeva,***
***Sevinc Tahirqızı***